# Gənc nəslin tərbiyəsində vətənpərvərliyin rolu

**Əlikram Zahir oğlu Xankişiyev**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** araz.cənublu98@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. İ.H. Cəbrayılov,
p.ü.f.d., dos. T.M. İsayeva

**Açar sözlər:** təhsil, tərbiyə, gənc nəsil, vətənpərvərlik, milli şüur, şəhidlik
**Ключевые слова:** образование, воспитание, молодое поколение, патриотизм, национальное самосознание, мученичество
**Key words:** education, upbringing, young generation, patriotism, national consciousness, martyrdom

İlk öncə onu deyək ki, Azərbaycan Respublikası əlverişli strateji coğrafi mövqeyi, ərazidə yerləşən zəngin xammal mənbələri, iqlimi, tarixi keçmişi, qədim adət ənənələri və s. olan ölkədir. Respubikamızın ən qiymətli, dəyərli sərvəti isə onun gəncləri, gələcək nəslidir. Gənclik yaş dövrü insanın həyatında zamanın ən hərəkətverici, çılğın, sağlam ruhlu, həyata inamla ümidlə baxan dövrüdür. Hər bir cəmiyyətin sağlam, düşüncəli, təfəkkürlü, istedadlı və intellektual gənclərə ehtiyacı var. Məhz buna görə də həm fərd, həm də dövlət olaraq əsas vəzifələrdən biri Müstəqil Azərbaycan Respublikasının əsas məqsədlərindən biri milli-mənəvi və vətənpərvər əqidəli, demokratik, dünyagörüşlü, ədalətli, savadlı, bacarıqlı gənc nəsil yetişdirməkdir. Respublikamızda bu sahəyə xüsusi diqqət ayrılmış gənclərlə iş üzrə müxtəlif təşkilatlar, komitələr ən əsasında Ümummilli Lider Heydər Əliyevin Fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi təsis edilmişdir.

Gənclərdə mənəvi tərbiyə məktəb illərində formalaşır. Tarix fənninin tədrisi prosesində yeniyetmələrdə vətənpərvərlik, vətənə, dosta məhəbbət və vətən yolunda öz canlarını qurban verməyə hazır olan gənclər yetişir. Tarixi materialları mənimsəməklə gənclərdə milli etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürur yaranır. Burada vətəninin xarakterini və mədəni incilərini qorumaq və özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Ali məktəblərdə də gənclərimiz Azərbaycan tarixinin tədrisi prosesində milli ruhda tərbiyə olunurlar, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnirlər. Bu, sadəcə, orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq millətini sevməklə yanaşı tarixini bilmək və təhsilli olmaq gərəkdir. Azərbaycan tarixi üzrə ali məktəb mühazirələrinin üzərində işi təşkil edərkən tələbələr vətənpərvərliyin tarixi kökləri min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət ənənələrinə bağlanmış dövlətçilik anlayışını təhlil edir və onun mahiyyətini dərindən başa düşürlər. Vətənpərvərlik milli-azadlıq hərəkatı zamanı, vətən müharibəsində özünü göstərir.

Mənəvi tərbiyə yeniyetmə və gənclərimizdə ilk öncə ailədə sonra isə təhsil ocaqlarında formalaşır və inkişaf edir. Bununla yanaşı mühitdə, cəmiyyətin də təsiri önəmlidir. Nümunəvi gənclərin yetişməsi üçün isə, cəmiyyət özü şərait yaratmalıdır. Yəni gənc nəslin milli mənlik şüurun, mənəvi əxlaqi keyfiyyətlərin, istedad və intellektinin inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi düşünən beyinlərin qarşısında duran əsas bir vəzifədir. Onu da qeyd edək ki, Azərbaycan gəncliyi tarix boyu və hal-hazırkı dövrdə yuxarıda sadalanan insani keyfiyyətlər baxımından nəinki ölkə ərasisində, hətta dünyada fərqlənib seçilmişdir. Tarixi

keçmişimizdən inancımızdan cəsarətlənərək deyə bilərik ki, bir çox zamanlarda digərlərinə nümunə olmuşlar. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"n-da ölkəmiz üçün müasir düşüncəli və rəqabət qabiliyyətli insan kapitalının formalaşdırılmasında ümumi təhsilin xüsusi əhəmiyyəti olduğu qeyd olunub. Gənclərin vətənpərvərlik tərbiyəsinin, milli şüurunun inkişafı, mənzil - məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, asudə vaxtlarının səmərəli keçirilməsi və digər məsələlərin həlli üçün dövlət proqramları qəbul edilib, prezident fərmanı və sərəncamları imzalanıb, beynəlxalq hüquq prinsiplərinə əsaslanan qanunvericilik bazası yaradılıb. Məhz bu səbəblə ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyətdə tələbyönlü şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyəsi daim diqqət mərkəzində olmuşdur. Qlobal dünyanın məktəbin qarşısında qoyduğu vəzifələr də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsini aktuallaşdırıb.

Ümumtəhsil məktəblərdə tədris olunan bütün fənlər təhsilalanlara elmi biliklər verməklə yanaşı, həm də gənc nəslin milli-mənəvi keyfiyyətlər, xüsusən də vətənpərvərlik, ruhunda böyüməsinə xidmət edir. Bu baxımdan tarix, ədəbiyyat və hərbi hazırlıq fənninin üzərinə daha böyük məsuliyyət düşür. Xüsusilə cəmiyyətə yararlı, bilik, bacarıq və vərdişlərlə silahlanmış, geniş dünyagörüşə malik vətəndaşların yetişdirilməsi birbaşa tarix fənninin, dolayısıyla tarix müəllimlərinin vəzifəsidir. Elə buna görə də xüsusilə tarix fənnini tədris edən müəllim bütün siniflərdə yaş xüsusiyyətin nəzərə almaqla, səviyyəsinə uyğun olaraq şagirdlərə ta qədim dövrdən formalaşmış, inkişaf etmiş, tarixin dərinliklərindən süzülüb gələn şanlı keçmişimizi öyrətməklə yanaşı vətən, vətəndaş, vətəndaşlıq, vətənpərvərlik anlayışları haqqında mütəmadi məlumatlar verməli, onlarda əmələ gələ biləcək sualları qaranlıq məqamları aydınlatmalıdır. Bir sözlə şagirdlərə nəyisə aksioma kimi qəbul elətdirmək yox, anlayışdan doğan mahiyyəti hərtərəfli şəkildə nəticə olaraq variantlarla ortaya qoymaq şagirdə düzgün olanı təyin etməyi yönəltmək. Ümumiyyətlə, tarix müəlliminin qarşısında duran ən mühüm vəzifələrdən biri gənc nəslə vətənin nə olduğunu, onun haradan başladığını aşılamaqdır. Çünki vətənpərvərlik tərbiyəsi məhz vətən anlayışını şagirdlərin nə dərəcədə dərk etməsi, vətəni necə sevməsi ilə birbaşa bağlıdır. Təlim prosesində müxtəlif siniflərdə vətəndaşlıq borcu tərbiyəsini də həmin məqsədlərə müvafiq olaraq aparmaq daha çox fayda verə bilər (7, s. 24).

Azərbaycan tarixi kursunun mühazirə mətnlərində olan mövzulardan (dövlətçilik, milli-mənəvi dəyərlər, döyüşlər, qəhrəmanlıq, inqilablar, üsyanlar, şəhidlərlə əlaqədar olan) istifadə edərək mövzu çərçivəsində tələbələrə vətənpərvərlik hisslərinin aşılanması vacibdir.

Gənclərimiz məktəb illərindəki aldıqları biliklərdən artıq bilirlər ki, vətən dedikdə, biz yalnız müəyyən sərhədləri olan bir torpaq sahəsi başa düşmürük. Vətən bizim üçün ilk növbədə anadır. Çünki o, bizi bir ana kimi öz qoynunda bəsləyir, boya-başa çatdırır. Biz bu torpağın havasını udur, suyunu içir, çörəyini yeyirik. Azərbaycan bizim hamımızın ümumi vətənidir. Hər birimizin yaşadığı şəhər, kənd, ev bu torpağın üzərində yerləşmişdir. Vətən ulu babalarımızın uyuduğu torpaq, gələcək nəsillərin yaşayış yeridir (3, s. 8)

Yeniyetmə və gənclərimiz dərsdə və dərsdənkənar tədbirlərdə, ekskursiyalarda iştirak etməli, işğaldan azad olunmuş torpaqlarımızı, sərhədlərimizi bilməli, şəhidlərimiz haqqında məlumatlı olmalı, milli qəhrəmanlarımızı tanımalı, müharibə veteranları qazilərlə görüşlər təşkil edilməlidir. Şagirdləri hərbi hissələrə, muzeylərə, Bayraq meydanına, dövlət diyarşünaslıq-muzeylərinə apararaq onlara tariximiz, müstəqilliyimiz haqqında məlumat verilməlidir. Gənclərimiz tariximizi bilməlidirlər.

Gənclərdə milli mənlik şüurunun, vətənpərvərlik hisslərinin formalaşmasına təsir edən əsas vasitələrdən biri də yazılan mahnılar, bədii və sənədli filmlər, incəsənət nümunələri ilə

yanaşı bədii ədəbiyyatın da böyük təsiri var. Xüsusilə hər hansı bir milli qəhrəmanımız Mübariz İbrahimov (2010), general mayor Polad Həşimov (2020), qazilərimizi tanıması və ya hansısa region haqqında, tarixi hadisə, abidələrimizlə bağlı və hansısa döyüş əməliyyatı ilə bağlı məlumat əldə etməsində bədii və sənədli filmlərin rolu böyükdür. Bunlarla yanaşı bədi ədəbiyyatın da vətənpərvərlik mövzusunda təsir gücü böyükdür. Nümunə üzrə qeyd edək ki, regionlarımızla bağlı, görkəmli mütəfəkkir, dövlət xadimləri haqqında, döyüş əməliyyatı, milli qəhrəmanlar və qazilərimizi həyat və fəaliyyətini, keçdiyi döyüş yolu və göstərdiyi şücaət, qəhrəmanlıqların cəm olunduğu xatirə əsər, kitablar milli şüur və vətənpərvərlik hislərin formalaşmasında xüsusi yeri var.

Azərbaycan xalqının başına gələn faciələr tarixdə olmaqla yanaşı ədəbiyyat fənninə inteqrasiya edir. Tədris kinolarına sənədli filmlər vasitəsilə gənc nəsil həmin hadisələrdən xəbərdar olmaqla onlarda təsəvvürlər formalaşır. Tariximizə dair bədii filmlər çəkilmişdir. Gənlərimizin maraq dairələri olduqca müxtəlifdir, buna görə də əldə olan imkanlardan maksimum istifadə etməklə gənclərin diqqətin çəkən hər sahədə vətənpərvərlik mövzuları ön planda olmalıdır. Tariximizi bilmək gənclərimiz üçün çox vacibdir. Vətəni sevmək, onu qorumaq, gözəlləşdirmək, daha da varlı və qüdrətli etmək xalqımızın ən yüksək əxlaqi dəyərləridir. Hər bir Azərbaycan vətəndaşı şərait tələb etdikdə silaha sarılaraq vətəni müdafiə etməyi özünün müqəddəs vəzifəsi hesab etməlidir.

Xalq olaraq tarixi keçmişimiz, qəhrəmanlıq salnaməmiz və bunları artıqlaması ilə təsdiq edən tarixi-əbədi əsərlərimiz gənc nəslin tərbiyəsində vətənpərvərlik hisslərin formalaşmasında xüsusi təsiri vardır. (6. s.89) Bu qəlibdən olan Kitabi-Dədə Qorqud, Koroğlu, Əsrimizin Siyavuşu və s. nümunə göstərə bilərik. Xüsusilə Gənclərdə milli mənlik şüurunu inkişaf etdirilməsində və vətənpərvərlik hisslərin formalaşmasında şərəfli tarixi keçmişimizlə bərabər xüsusilə Azərbaycan tarixi kursunun tədrisində XIX əsrin sonu – XX əsrin əvvəlləri, milli-demokratik qüvvələrin fəaliyyəti, AXC fəallarının Azərbaycan üçün etdikləri fədakarlıqları, cümhuriyyətin yaranması, onun vətən, xalq üçün gördüyü işlərin rolu böyükdür.

Vətənə məhəbbət hissi olmayan adamda əxlaqi kamillikdən danışmaq olmaz. Azərbaycanın dövlət müstəqilliyini qazanmasında gənclərimizin rolu az olmayıb. Milli Azadlıq Hərəkatında yüzlərlə gənc Azərbaycan Respublikasının SSRİ-nin tərkibindən çıxarılmasına çalışıb və bunun üçün meydanlara axışıb. Günlərlə, aylarla mitinq və piketlər keçirib.

Vətənpərvərlik insanın öz vətəninə sevgi və sədaqətindən, doğma vətənin siyasi, iqtisadi və mədəni tərəqqisi naminə çalışmaqdan və onun müdafiəsinə hər an hazır olmaqdan ibarətdir. Doğma yurda sədaqət həm də mövcud çətinlikdən qorxmayıb vətəndaşlıq mətanəti göstərmək deməkdir. Ən böyük sevgi vətən sevgisidir və bu sevgi fövqəladə vəziyyətlərdə, ölüm-dirim çağlarında daha qabarıq aşkara çıxır.

Tarix dərslərində şagirdlərdə vətənə məhəbbət hissinin yaradılmasında və inkişaf etdirilməsində Azərbaycan torpaqlarının düşməndən müdafiə olunmasında qəhrəmanlıqlar, şücaətlər göstərən milli qəhrəmanlarımızın, şəhidlərimizin ibrətamiz həyat yollarından gətirilən nümunələr, misallar böyük təsir gücünə malikdir. Məsələn, Mübariz İbrahimov haqqında danışaraq qeyd etmək lazımdır ki, o, hərbi xidmətə könüllü getmişdi, kəşfiyyatçı idi. Düşmənə qarşı intiqam hissi ilə alışıb yanırdı. 2010-cu il 19 iyun gecəsində Mübariz səngərdən çıxaraq, təmas xəttini minalanmış sahəni keçib düşmən səngərinə doğru irəliləmişdir. Düşmən postunu təkbaşına ələ keçirmiş. Düşmənin canlı qüvvəsinin əksəriyyətin əlbəyaxa tərksilah etmişdir. Düşmənin öz silahını özünə qarşı istifadə etmiş, düşməni pərən-pərən salmışdır. Gecə boyu təkbaşına düşmənə qan uddurmuş, onlara ağır itkilər vermişdir. Səhərə yaxın düşmənə dəstəyə gələn yeni xüsusi təyinatlı qüvvələrin köməyi ilə Mübariz şəhid edilir. Dövri mətbuatda

çıxan bəzi xəbərlərdə hətta deyilirdi ki, Mübariz düşmən komandirin əsir alır və geri qayıdan zaman düşmənin snayper tüfəngindən açılan atəşlə namərdcəsinə şəhid edilir. Mübariz şəhid olduqdan sonra onun qollarının bağlı olması ondan xəbər verir ki, düşmən onun cansız cismindən belə qorxub vahiməyə düşüblər. Mübariz intiqamını aldı və həmin gecə qəhrəmancasına şəhid oldu. Qəhrəman Azərbaycan əsgəri də həm Aprel döyüşlərində, həmdə II Qarabağ Dəmir Yumruq əməliyyatında mənfur düşməndən Mübarizin timsalında bütün şəhidlərimizin qisasın aldı. Allah şəhidlərimizə rəhmət eləsin.

Tarix əsrlər boyu Azərbaycana vətənpərvər övladlar bəxş etmişdir. Onlar adi adamlardır, təcrübəli sərkərdələrdir, müdrik siyasətçilər, uzaqgörən dövlət xadimləridir.

Bu gün Azərbaycan müstəqildir. Azərbaycan dövləti dünyanın sayılıb-seçilən dövlətlərindən biridir. Bu dövlətin vətənpərvər övladları istər vətəndə, istərsə də vətəndən kənarda boya-başa çatdıqları torpağın, mənsub olduqları xalqın şərəfini ləyaqətlə qoruyurlar. Hər bir vətənpərvər insan Azərbaycan adını uca tutur, bu torpağa hörmət gətirən xeyirxah əməllərlə məşğul olmağa çalışırlar.

Yeniyetmə və gənclərimiz bilirlər ki, şəhidlik vətənpərvərliyin ən uca zirvəsidir. Son ana qədər erməni cəlladlarının işgəncələrinə tab gətirərək düşmənə boyun əyməyən yüzlərlə şəhidimiz vardır. Onlar oz qanları ilə Zəfər tarixini yazdılar.

Beləliklə, vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni xarici və daxili düşmənlərdən qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinmək və Vətəni layiqli vətəndaş kimi təmsil etməkdir.

Təlim-tərbiyə müəssisələrində gənclərin vətənpərvərlik tərbiyəsini ilə bağlı görüləcək işlərin məqsədyönlü, planlı, mütəşəkkil olaraq həyata keçirilməsi onları milli və mənəvi dəyərlərə, yüksək intellektual qabiliyyətlərə, bilik, bacarıq və vərdişlərə yiyələnərək dövlətimizi, millətimizi layiqli səviyyədə təmsil etməlidir. Vətən uğrunda mübarizəyə, vətəni yad maraqlardan qorumağa, yeri gələrsə, vətənin ərazi bütövlüyü, sərhədlərinin qorunması uğrunda şəhid olmağa hazırlayır.

**Məqalənin aktuallığı.** Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhdan, onların vətənpərvərlik tərbiyəsi və digər amillərdən asılıdır. Məqalənin də aktuallığı onun məhz bu kumi vacib bir mövzuya həsr olunması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə gənclərin vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsi ilə bağlı bir sıra pedaqoji yanaşmalar, yeni elmi ideyalar yer alır. Habelə, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin elmi-pedaqoji əsaslarının spesifik cəhətləri ilə bağlı irəli sürülən ideyalar da yenidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə vətənpərvərlik tərbiyəsi ilə bağlı praktik nümunələrlə yanaşı, praktik fəaliyyət istiqamətləri öz əksini tapır. Hansı ki, həmin praktik nümunələrdən və praktik fəaliyyət istiqamətlərində ümumi, orta ixtisas və ali təhsil müəssisələrində istənilən fənnin gedişində müəllimlər, həm də tələbələr istifadə edə bilərlər.

## Ədəbiyyat

1.Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006.

2.Əliyev F.A. Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi. Bakı: ADPU-nun nəşriyyatı, 2012.

3.Paşayev S.T. “Diyarşünaslıq materialları gənc nəslin Vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi. Bakı: Mürtəcim, 2010, 300 s.

4.Gəncliyimiz – gələcəyimiz: tövsiyə-biblioqrafik vəsait. Bakı: C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, 2019, 81 s.

5.Məmmədova M. S. Tarixin tədrisinin aktual problemləri. Bakı, 2015, 112 s.

6.Azərbaycanın ictimai həyatında gənclərin rolu / A.M. Cəfərovun, E.B. İmaməliyevin red. ilə. Bakı: MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi, 2012.

7.Milli mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu / Tərt. ed. N. Alışova. Bakı, 2011, 85 s.

8.Ağayev H.M. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı, 2011.

9.İsayeva T. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili: 5-11-ci siniflər üzrə. Bakı, 2009, 148 s.

**А.З. Ханкишиев**

## Роль патриотизма в воспитании подрастающего поколения

## Резюме

Именно молодость периода определяет дальнейшую судьбу человека в его становлении. В связи с этим Азербайджанская Республика уделяет молодежи особое внимание и заботу. Они с детства вооружены всеми необходимыми знаниями, навыками и привычками для удовлетворения своих потребностей в самостоятельной жизни. Молодежь, в частности, организована для развития национального самосознания, моральных качеств, таланта и интеллекта, а также чувства патриотизма. Тема патриотизма, особенно истории, литературы, азербайджанского языка, географии и т. Д. Темы, особенно внеклассные и внеклассные мероприятия. Азербайджанская молодежь регулярно организует мероприятия, семинары, выставки и встречи в государственных структурах. Добровольные программы реализуются с целью повышения практического опыта молодежи. Короче говоря, как сказал Али бек Гусейнзаде, в переносном смысле азербайджанская молодежь воспитывается на «турецкой крови, исламской вере, фирангской рифме».

**A.Z. Khankishiyev**

## The role of patriotism in the education of the younger generation

## Summary

In the formation of a person, the period that determines his future destiny is his youth. From this point of view, the Republic of Azerbaijan pays special attention and care to the youth. To meet their needs in independent living, they are armed with all the necessary knowledge, skills and habits, starting from childhood. Young people, in particular, are organized to develop national self-consciousness, moral qualities, talent and intellect, and

cultivate a sense of patriotism. The subject of patriotism, especially History, Literature, Azerbaijani language, Geography, etc. subjects, especially extracurricular and extracurricular activities. Azerbaijani youth regularly organize events, seminars, exhibitions and meetings within government agencies. Volunteer programs are implemented to increase the practical experience of young people. In short, as Ali Bey Huseynzadeh put it, figuratively speaking, Azerbaijani youth are brought up with "Turkish blood, Islamic faith, France rhyme."

**Redaksiyaya daxil olub:** 22.10.2021